# HESABAT. AZƏRBAYCAN ANİMASİYASI 2023-CÜ İLDƏ

## MÜNDƏRİCAT


GİRİŞ SÖZÜ ........ 1

*BİRİNCİ HİSSƏ. AZƏRBAYCAN ANİMASİYA ASSOSİASİYASININ FƏALİYYƏTİ* ........ *1*

*İKİNCİ HİSSƏ. 2023-CÜ İLDƏ AZƏRBAYCAN ANİMASİYASINA AİD STATİSTİKALAR VƏ NAİLİYYƏTLƏR* ........ *5*

“Animation in Azerbaijan 2023” kataloqu ........ 5

Xarici beynəlxalq festivallarda iştirak ........ 6

Azərbaycanda Animasiya sahəsində müsabiqələr, festivallar və tədbirlər ........ 7

Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) ........ 9

Azərbaycan Respublikası Audiovizual Şurası ........ 9

Animasiya kinosuna aid təhsil proqramları ........ 9

*ÜÇÜNCÜ HİSSƏ. XÜLASƏ* ........ *10*

Mənbələr ........ 12


## GİRİŞ SÖZÜ

Hesabat üç hissədən ibarətdir. Birinci hissədə 2023-cü ildə Azərbaycan Animasiya Assosiasiyası ictimai birliyinin fəaliyyəti təsvir olunub. İkinci hissədə 2023-cü ildə Azərbaycan animasiyasına aid statistikalar və nailiyyətlər qeyd olunur. Üçüncü hissədə (“Xülasə”) isə Azərbaycan animasiyasının gələcəyi barədə söhbət açılır.

## BİRİNCİ HİSSƏ. AZƏRBAYCAN ANİMASİYA ASSOSİASİYASININ FƏALİYYƏTİ

2023-cü ildə Azərbaycan Animasiya Assosiasiyası 17 tədbirin və layihələrin təşkilatçı və ya dəstəkçisi olub. 2023-cü ildə assosiasiyaya 17 üzv qoşulub (16 fiziki şəxs, 1 şirkət), ümumi üzvlərin sayı 23-ə çatıb (21 fiziki şəxs və 2 şirkət). Assosiasiya tərəfindən təşkil olunan ən böyük layihə 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı idi. 2023-cü ildə assosiasiyasının fəaliyyətlərini təqdim edirik:

**Yanvarın 10-nunda** “Azərbaycanfilm” kinostudiyası və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatı dəstəyilə Azərbaycan Dövlət Film Fondunda tanınmış animasiya filmləri rejissoru Məsud Pənahinin 80 illik yubileyi qeyd olundu. Tədbirdə “Qız qalası əfsanəsi” və “Günlərin bir günündə…” animasiya filmləri, həmçinin uzun müddət itirilmiş hesab olunan, Məsud Pənahi tərəfindən Film Fonduna təqdim olunmuş “Xoruz” filmi nümayiş etdirildi.

**Aprelin 20-21** tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə “Azərbaycan kinosu – 125: Reallıq, çağırışlar və məqsədlər” adlı kinoforumda assosiasiyasının üzvləri iştirak ediblər.

**Aprelin 27-də** Azərbaycan Animasiya Assosiasiyasının üzvləri nazir Adil Kərimliyə müraciət ünvanladılar.

**Aprelin 29-da** Qarabağ Dirçəliş Fondu ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı, ANİMAFİLM festivalı da daxil 20-dən artıq donor və tərəfdaşların dəstəyilə “Zəfərdən dirçəlişə” adlı layihə çərçivəsində işğaldan azad olunmuş ərazilərdə ətraf mühitə vurulmuş zərərin aradan qaldırılması, ekoloji tarazlığın bərpası məqsədilə Zəngilanda meşə massivinin salınması layihəsi yerinə yetirilib.

**İyunun 11-indən 17-sinədək** Azərbaycan Animasiya Assosiasiyasının üzvləri dünyanın ən böyük və ən qədim animasiya festivalı olan Fransanın Annecy Beynəlxalq Animasiya Film Festivalında iştirak ediblər. Festivalda “Hədis” (rejissor Nəzrin Ağamalıyeva) qısametrajlı animasiya filminin dünya premyerası baş tutub (film beynəlxalq müsabiqədə iştirak edib). Qeyd edək ki, “Hədis” 112 ölkə üzrə 3250 film arasından seçilib. Qısametrajlı kateqoriyada yarışa cəmi 71 film layiq görülüb. Annecy festivalında, həmçinin, gənc animasiya rejissoru Ülviyyə Məmmədova da iştirak edib. Onun festivalda iştirakı 5-ci ANİMAFİLM festivalının “Ağ qorxu” filmi ilə “Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi” mükafatını qazanması sayəsində mümkün olub.

**İyulun 17-sində** Mədəniyyət Nazirliyində kino ictimaiyyəti nümayəndələrinin iştirakı ilə “Azərbaycan Respublikasının Kino Agentliyi” publik hüquqi şəxsi (ARKA) film layihələri müsabiqəsinə həsr olunan təqdimat tədbiri keçirilib. Tədbirdə Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev iştirak edib.

**Avqustun 2-sində** Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan kinosunun 125, “Azərbaycanfilm” kinostudiyasının yaradılmasının 100 illiyi və Azərbaycan Kinosu Gününə həsr olunmuş tədbir keçirildi. Tədbirdə Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev və rəssam Kübra Binnətova fəxri fərmanla təltif olundular.

**Avqustun 5-ində** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Animasiya Assosiasiyası və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının təşkilatçılığı ilə animasiya kinosu sahəsində çalışan peşəkarlar və həvəskarlarla görüş keçirilib.

**Avqustun 24-ündə** Azərbaycan Animasiya Assosiasiyası və Azərbaycan Prodüserlər Gildiyası birgə prodüserlər və animatorlar üçün görüş keçirib.

**Sentyabrın 6-sından 10-nunadək** Azərbaycan Animasiya Assosiasiyası və “PERİ FİLM” MMC-nin təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyilə Nizami Kino Mərkəzində 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçirilib. Festivalda beş gün ərzində uşaqlar və böyüklər üçün çəkilmiş 64 müxtəlif animasiya filmi nümayiş etdirildi. Festivalın builki mövzusu “Qadın haqları” idi. Bilet satışlarından əldə olunan gəlir Azərbaycanın gənc qadın rejissorlarına ianə edildi. Festivalın baş sponsorları Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyi, əsas sponsoru İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi, digər sponsorları Niderland Krallığının Azərbaycandakı Səfirliyi və “TOTD” ictimaiyyətlə əlaqələr təşkilatı olub. Festivalın tərəfdaşları Azərbaycan Kinematoqrafçılar İttifaqı, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, “Shahmaran Metaceramica”, “Gender Hub Azerbaijan”, Çexiya Respublikasının Azərbaycandakı səfirliyi, Fransanın Azərbaycandakı səfirliyi və Azərbaycandakı Fransız İnstitutu, Annecy Beynəlxalq Animasiya Film Festivalı, “Tripsome”, “XPPen”, “Mr. Chemical”, “Bonaqua“, “Dynamic Box“ şirkətləridir. Festivalın media tərəfdaşları: “Skwigly” onlayn

animasiya jurnalı, Mədəniyyət TV, Trend İnformasiya Agentliyi, Day.az, Milli.az, Azernews, “Əkinçi”, “VarYox”, “KYNO” platformaları və CityLife.az.

**Sentyabrın 6-sından 10-nunadək** Nizami Kino Mərkəzində keçirilən 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalında “Animasiya filmləri vasitəsilə qadın haqları” vörkşopu və maliyyə proqramı layihəsi uğurla həyata keçirildi. Festival çərçivəsində təşkil edilən bu proqram gənc qadın rejissorlara qadın haqlarına yönəlmiş animasiya filmlərini yaratmaq üçün platforma təklif etmək məqsədi daşıyırdı. Bu vörkşopu İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi maliyyələşdirdi. Belə ki, festivalın bilet satışından əldə etdiyi 9456 AZN gəlirin (tədbir zamanı 3000-dən çox bilet satılıb) 3000 AZN-i vörkşop iştirakçılarının dəstəklənməsi üçün ayrıldı. Seçilmiş rejissorlar animasiya peşəkarları – isveçrəli rejissor Isabelle Favez, fransalı prodüser Olivier Catherin və azərbaycanlı rejissor Nəzrin Ağamalıyevanın rəhbərlik etdiyi təlim sessiyaları, ustad dərsləri və məsləhətləşmələrdə iştirak etdilər. İki layihə qalib oldu. 1-ci yer: Rejissor Mehriban Əliyeva, “Züleyxa Seyidməmmədova” (“Səma qızı”) filmi – 2000 AZN pul mükafatı. 2-ci yer: Rejissor Leyla Novruzova, “Üzük” filmi – 1000 AZN pul mükafatı.

**Sentyabrın 7-ində** dövlət və özəl qurumların nümayəndələrinin iştirakı ilə Heydər Əliyev Mərkəzində “Azərbaycan milli animasiya sənayesi üçün kommersiyalaşdırılma və ixrac imkanları perspektivləri” mövzusunda dəyirmi masa təşkil olundu. Mədəniyyət Nazirliyinin dəstəyi, “Azərbaycan Animasiya Assosiasiyası” ictimai birliyinin təşkilatçılığı ilə reallaşan tədbir 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı çərçivəsində keçirilib.

**Sentyabrın 29-unda** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə Mədəni və yaradıcı sənayelər üzrə tədris və inkubasiya mərkəzində Animatorların İnkişaf Proqramı (Animator’s Accelerator) üçün müraciətlərin qəbuluna start verildi. Bu – 8 həftəlik təlim proqramı, yerli animatorların peşəkarlığının artırılması və beynəlxalq standartlara uyğun peşə bacarıqlarının mənimsənilməsi məqsədilə həyata keçirilir. Təlimi nəzərə alaraq ən uğurlu iştirakçıların işlə təmin edilməsi və beynəlxalq layihələrə cəlb edilməsi nəzərdə tutulur. Bu təlim “Lakeside” animasiya studiyasının kreativ direktoru Matthew Lyonun rəhbərliyi altında keçiriləcək.

**Oktyabrın 4-ündə və 6-sında** Xəzər Universitetində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında və Sumqayıt Dövlət Universitetində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə “Animatorların inkişaf proqramı” (Animator’s accelerator) adlı təlimin infosessiyaları təşkil olundu.

**Oktyabrın 13-14** tarixlərində Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev və Assosiasiyanın üzvü, “Kookla TV” YouTube kanalının rəhbəri rejissor Seyla Əliyeva Şuşada keçirilən 1-ci Türk Dünyası Mədəniyyət Forumuda eştirak ediblər. Forum Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, TÜRKSOY və Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə keçirilib. Tədbirdə mədəniyyət naziri Adil Kərimli, TÜRKSOY-un Baş katibi Sultan Raev, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev və türk dövlətlərindən digər rəsmilər, elm və mədəniyyət xadimləri, incəsənət ustaları və kollektivləri iştirak edir. Forum çərçivəsində yaradıcı sənayelərin və innovasiyaların mədəniyyət sahəsində inkişafı ilə bağlı panel keçirilib.

Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov "Mədəniyyət və Yaradıcı sənayelər sahəsində türk dövlətlərinin əməkdaşlıq perspektivləri" mövzusunda keçirilən panel sessiyası ilə bağlı məlumatları iştirakçılarla bölüşüb. Forumda həmçinin Qazaxıstanın Almaty Animation Festival-ının təşkilatçıları, animasiya rejissorları Anita Chernykh və Ivan Ardashov və Üzbəkistanın DIP Animation Studio-sunun əməkdaşı Makhmud Goziev iştirak ediblər.

**Oktyabrın 28-i**, Beynəlxalq Animasiya Günündə Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə "Animatorun reyhan kompotu" adlı tədbir kiçirilib.

**Noyabrın 19-unda** Şəkidə, dekabrın 2-sində Lənkəranda 6-cı ANİMAFİLM festivalında qalib gəlmiş bir sıra filmlər, o cümlədən, "Hədis" animasiya filmi təqdim olunub. Tədbirlər animator Mehriban Əliyeva (Şəki) və "O biri otaq" açıq platformasının (Lənkəran) dəstəyilə keçirilib.

**Noyabrın 27-si – dekabrın 3-ü** tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Yaradıcı həftə" çərçivəsində "Yaradıcı Sənayelər Sərgisi" keçirilib. Sərgidə nümayiş etdirilmiş Azərbaycan Animasiya Assosiasiyasına məxsus stenddə ölkəmizin animasiya studiyaları öz məhsul və xidmətlərini təqdim ediblər. Həmçinin, mədəni və yaradıcı sənayelər üzrə tədris və inkubasiya mərkəzinin stendində "Animatorların inkişaf proqramı" (Animator's Accelerator) barədə məlumat verildi. Sərgi iştirakçılarına, həmçinin, "Animation in Azerbaijan 2023" adlı kataloq da təqdim olundu. Kataloqda Azərbaycanda çəkilmiş və hazırlıq mərhələsində olan animasiya filmləri və seriallar, animasiya sahəsində fəaliyyət göstərən studiyalar, kinofestivallar, animasiya kinosuna dəstək göstərən qurumların siyahısı əks olundu.

**Noyabrın 29-unda** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Yaradıcı həftə" çərçivəsində "Mədəniyyət və Yaradıcı Sənayelər Forumu" keçirilib. Forumda Azərbaycan Animasiya Assosiasiyasının dəstəyilə "Türk dünyası animasiya şəbəkəsinin qurulması" mövzusunda dəyirmi masa təşkil olunub. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər türkdilli ölkələrdən qabaqcıl animasiya studiyaları "Turkic Animation Network" şəbəkəsinin yaradılması və birgə əməkdaşlığı müzakirə ediblər.

**Dekabrın 1-3** tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Yaradıcı həftə" çərçivəsində "Gəl, YARAT!" kreativlik üzrə marafon keçirilib. Marafon çərçivəsində Azərbaycan Animasiya Assosiasiyasının dəstəyilə "Pitch a TV Show!" təlim və pitçinq müsabiqəsi baş tutdu. "Pitch a TV Show!" təliminin iştirakçıları animasiya serialının istehsalı haqqında geniş məlumat aldılar, həmçinin, personaj dizaynının hazırlanması, sinopsis yazılması və layihə təqdim olunmasına (pitçinq) dair biliklərə yiyələndilər. Təlimin sonunda komandalar animasiya serialları layihələrini təqdim etdilər və qaliblər elan olundu ("Ovsun" komandası, "Yerimizin keşikçiləri" layihəsi – Fatimə Həsənzadə, Sevil Rafailova, Sevinc Bilalova). Animasiya təlimində mentor qismində Oqtay Yusibov, münsiflər heyəti qismində isə rejissor Elçin Hami Axundov və Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru Qurban Məsimov çıxış ediblər.

**Dekabrın 3-ündə** Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə və Azərbaycan Animasiya Assosiasiyasının dəstəyilə "Yaradıcı həftə" çərçivəsində dünyanın ən böyük animasiya studiyası olan "The Walt Disney Studio"nun yaradılmasının 100 illiyi münasibətilə yubiley tədbiri keçirilib. Tədbirdə "Mulan" (1998) filmi nümayiş etdirilib.

**Dekabrın 4-ündə** Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev 6-cı ANİMAFİLM festivalının əks-sədası tədbiri çərçivəsində Naxçıvana səfəri zamanı Naxçıvan Dövlət Film Fondunda olmuş, burada Naxçıvan şəhər ümumtəhsil məktəblərindən 11 və 15 №-li tam orta məktəbin şagirdlərinə "Pıspısa xanım və Siçan bəy", "Hər bir yerdə", "Bacı olmaq", "Korvin", "Kiçik bir səyahət", "Pərixanım Sofiyeva", "Timid və ağacdələn", dekabrın 5-ində isə 2, 4 və 12 №-li tam orta məktəbin şagirdlərinə "Hədis", "Hidari", "Şəfəq saçan səma altında", "Fizika", "Yengəc", "Bizim uniforma" animasiya filmləri nümayiş etdirilib.

**Dekabrın 18-ində** Azərbaycan Animasiya Assosiasiyasının anima.az saytı ilk dəfə olaraq builki NETTY 2023 – Azərbaycan Milli İnternet mükafatlandırma müsabiqəsində nominant olaraq iştirak edib.

**Dekabrın 20-sində** Azərbaycanın Almaniyadakı səfirliyi tanınmış rejissor, rəssam, animator, ssenarist və yazıçı Məsud Pənahini "Xüsusi tanınma və minnətdarlıq işarəsi" diplomu ilə təltif edib.

## İKİNCİ HİSSƏ. 2023-CÜ İLDƏ AZƏRBAYCAN ANİMASİYASINA AİD STATİSTİKALAR VƏ NAİLİYYƏTLƏR

### "Animation in Azerbaijan 2023" kataloqu

2023-cü ilin oktyabr ayında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Animasiya Assosiasiyasının tərtibatı ilə "Animation in Azerbaijan 2023" kataloqu çap olundu. Kataloqda 18 "layihələr" ("development" və ya "pre-production" mərhələsində olan layihələr) və 20 "yayımlanmış filmlər" yer alıb.[1]

**Layihələr**

Tammetrajlı filmlər (2 layihə): "Qarın Qulu", "Sehrli xalça".

Qısametrajlı filmlər (14 layihə): "Astronavt", "Dar vaxtda", "Dəhşətli həqiqət", "Əziz dinləyicilər", "Inanna", "Kapitan və Xəzər dənizi", "Qeyri-adi qorxu", "Narqız", "Saprim", "Səma qızı", "Sonuncu lələk", "Uyuq", "Üzük", "Yaşıl".

Televiziya serialları (2 layihə): "Atalanta", "İsi və Tutu".

**Yayımlanmış filmlər**

Qısametrajlı filmlər (2 film): "Baharın oğurlanması", "Hədis".

Tələbə filmləri (11 film): "Boş yerlər", "Əsl Toon Blüz", "Fokus-pokus", "Xəyalpərəst", "Kitabın səsi", "Mavi", "Nataraz", "Sirli meşə", "Təhsil haqqı", "Tələ", "Timid və ağacdələn".

Televiziya serialları (1 serial): "Cəhənnəmin isti bucağı".

---

[1] Kataloqda 26-cı səhifədə səhv aşkar olunub. "Qarabağ nağılı" filmi 2023-ci ildə yox, 2022-ci ildə istehsal olunub.

Sifarişli filmlər (6 film): "6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının treyleri", "Xosrov və Şirin", "Mərhəmət qılıncı", "The Half" – Birdən ölsək", "Toplanın yeni evi var", "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı".

**Kataloq üçün qeydlər:**

Kataloqda yer alınmayan bir neçə layihə (məsələn, Firəngiz Bağırovanın "Doublez" layihəsi) və onlarla YouTube videolar yer almayıb (məsələn, 2023-cü ildə "Kookla TV" YouTube kanalında 14 video, "MacaraTV" YouTube kanalında 3 video, "Azkinder Azerbaijan" YouTube kanalında video yüklənilib).

## Xarici beynəlxalq festivallarda iştirak

Azərbaycan Animasiya Assosiasiyasının məlumatına görə 2023-cü ildə 10 Azərbaycan animasiya filmi xarici beynəlxalq festivallarda iştirak edib. 2023-cü ildə istehsal olunan 2 film xarici beynəlxalq festivallarda iştirak etmişdir.

**"Hədis" (2023, rejissor Nəzrin Ağamalıyeva)**
2023-cü ildə "Hədis" qısametrajlı animasiya filmi dünyanın ən böyük animasiya festivalı olan Annecy Beynəlxalq Animasiya Filmləri Festivalının müsabiqəsinə daxil edilib. 2023-cü ildə "Hədis" 33 beynəlxalq festivala qəbul olunub ki, bu festivallardan dördü – Annecy, Busan, Animest və İzmir "Oscar" kvalifikasiyalı festivallardır. 2023-cü ildə film 8 beynəlxalq mükafat qazanmışdır. "Hədis"in iştirak etdiyi və mükafat qazandığı bütün festivallar haqqında ətraflı məlumatı rəsmi saytdan əldə edə bilərsiniz. Film Azərbaycan ("PERİ FİLM MMC"), ABŞ (Azerbaijan Cultural Society of Northern California) və Çexiya (Rəşid Ağamalıyev) birgə istehsalıdır.

**"Təhsil haqqı" (2023, rejissor Ruslan İbrahimli)**
Ruslan İbrahimli tərəfindən çəkilən "Təhsil haqqı" filmi 2023-cü ildə bu festivallarda iştirak etmişdir:

1. Lift-Off Global Network: Sessions 2023 (İngiltərə).
2. Hallucinea Film Festivalı (Fransa).
3. Varsity Film Expo (Hindistan) - "Best Mixed Media Animation" ("Ən yaxşı qarışıq media animasiyası" bölməsinin "Honorable Mention" (Şərəf Mükafatı).

**"Tarix" (2022, rejissor Ceyhun Türksoy)**
"OB FILM" MMC tərəfindən istehsal olunan "Tarix" filmi 2023-cü ildə bu festivallarda iştirak etmişdir:

1. "Altın Saka" Beynəlxalq Animasiya filmləri festivalı (Qazaxıstan) - "Üçüncü yer" mükafatı.
2. VAFI & RAFI – International Children and Youth Animation Film Festival (Xorvatiya)
3. Cinanima – International Animated Film Festival of Espinho (Portuqaliya) - "Oskar" və Kanada Ekran Mükafatları klassifikasiyalı festival.
4. Aakruti-My Creation International Film Festival (Hindistan) - Quarter-Finalist.
5. Batangas Balisong Film Festival (Filippin).
6. Festival del Cinema di Cefalu (İtaliya).
7. Cairo International Animation Forum (Misir).

**“Qarabağ nağılı” (2022, rejissor Firəngiz Qurbanova)**
“Birlik kinostudiyası” MMC tərəfindən istehsal olunan “Qarabağ nağılı” filmi 2023-cü ildə “Altın Saka” Beynəlxalq Animasiya filmləri festivalında (Qazaxıstan) iştirak etmişdir.

**“Saman yolu”** (**2022, rejissor Firəngiz Qurbanova)**
“Birlik kinostudiyası” MMC tərəfindən istehsal olunan “Saman yolu” filmi 2023-cü ildə bu festivallarda iştirak etmişdir:

1. RHFASF - Reel Harmony Festival and Script Festival (İngiltərə) – “Ən yaxşı eksperimental film kateqoriyası üzrə” xüsusi mükafat.
2. Star International Film festival (İtaliya) - “Ən yaxşı eksperimental film” mükafatı.
3. New York Istanbul Short Film Festival (ABŞ).

**“Qara buludlar” (2022, rejissor Ruslan İbrahimli)**
Ruslan İbrahimli tərəfindən çəkilən “Qara buludlar” filmi 2023-cü ildə Hindistanın Kalakari Film Festivalında iştirak etmişdir.

**“Araqçın” (2021, rejissor Firəngiz Qurbanova)**
“Birlik kinostudiyası” MMC tərəfindən istehsal olunan “Araqçın” filmi 2023-cü ildə “Altın Saka” Beynəlxalq Animasiya filmləri festivalında (Qazaxıstan) iştirak etmişdir.

**“Sənətə sevgi hekayəsi” (2021, rejissor Şahin Xəlil)**
Şahin Xəlilin “Sənətə sevgi hekayəsi” (“Story Of Art Love”) (2021) qısametrajlı eksperimental animasiya filmi Xorvatiyada keçirilən 14-cü “VAFI & RAFI – International Children and Youth Animation Film Festival”ın əsas müsabiqə proqramına seçilib.

**“Başlanğıc” (1981, rejissor Vaqif Behbudov)**
Vaqif Behbudovun “Başlanğıc” animasiya filmi Almaniyanın 21-ci Beynəlxalq Səssiz Filmlər və Canlı Musiqi Festivalında (21. Internationales Festival für Stummfilm und Livemusik) nümayiş etdirilib.

**“Cırtdan” (1969, rejissor Ağanağı Axundov, Yalçın Əfəndiyev)**
Restavrasiya olunmuş klassik “Cırtdan” filmi Italiyanın 37-ci Il Cinema Ritrovato festivalında nümayiş etdirilib. Il Cinema Ritrovato kino restavrasiyasına həsr olunan ən böyük kino festivalı. “Cırtdan” 2022-ci ildə Azərbaycan Animasiya Assosiasiyası Böyük Britaniyanın Kino Klassika Fondu, Azərbaycan Mədəniyyət Nazirliyi, prodüser-restavrator Daniel Bird və Polşada fəaliyyət göstərən Fixafilm tərəfindən bərpa olunmuşdur.

## Azərbaycanda Animasiya sahəsində müsabiqələr, festivallar və tədbirlər

**Aprelin 18-də** “Azərbaycanfilm” kinostudiyasının “START-2023” müsabiqəsinin nəticələri elan olunub. Kinostudiyanın 100 illiyinə həsr olunan müsabiqədə “Qısametrajlı animasiya filmi layihəsi” kateqoriyasında iki layihə qalib gəlib: “Sonuncu lələk” (Firəngiz Bağırova) və “Balıq” (Fuad Quliyev).

**Aprelin 17-sində** DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində “Kino həftəsi” layihəsi çərçivəsində “Pışpısa xanım və Siçan bəy” (1974, rejissor Məsud Pənahi), “Tıq-tıq və dostları

möcüzələr axtarışında" (2020, rejissor Sultan Abbasbəyli), "Tıq-tıqla möcüzələr axtarışında – Qobustan" (2022, rejissor Sultan Abbasbəyli) filmləri göstərilib.

**Mart** ayında Bakının kinoteatrlarında "Bizimkilər: Cırtdan, Bahar qız, Şahzadə və Qəhrəman" animasiya toplusu nümayiş etdirilib.

**İyunun 1-də** Uşaqların Beynəlxalq Müdafiəsi Günündə, YARAT Müasir İncəsənət Mərkəzində "Hədis" (2023, (Rejissor Nəzrin Ağamalıyeva) qısametrajlı animasiya filminin milli premyerası baş tutdu.

**Sentyabrın 6-sından 10-nunadək** animasiya üzrə Azərbaycanın ən böyük tədbiri olan ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı 6-cı dəfə baş tutub. Festivalın yerli müsabiqə üzrə qaliblər:

- "Baharın oğurlanması" (Rejissor Aleksandra Şirinova) - "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" – (mükafat, 500 ABŞ dolları).
- "The Half" – "Birdən ölsək" (2023, rejissor Rəvan Muradov) - "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" (Annecy festivalına səfər mükafatı).

6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının nominantları:

- "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" nominantları (8 film): "Qarabağ nağılı", "Timid və ağacdələn", "Baharın oğurlanması", "The Half" – Birdən ölsək", "Tülkü həccə gedir", "Qavaldaş", "Təhsil haqqı", "Nataraz".
- "Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi" nominantları (10 film): "Fokus-pokus", "Sirli meşə", "Mavi", "Tələ", "Boş yerlər", "Xəyalpərəst", "Kitabın səsi", "Fəsillər keçirdi…", "İki yol", "Pəncərə".

6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının müsabiqədənkənar proqramında "Hədis" (2023) qısametrajlı animasiya filmi, "Azərbaycanfilm" kinostudiyasının 100 illiyinə həsr olunan "Klassik Azərbaycan animasiya filmləri" proqramı ("Cırtdan" (1969), "Pıspısa xanım və Siçan bəy" (1974), "Anam ağaca çıxıb" (1986), "İthaf" (1990), "Söhbətül-əsmar" (1994), "Alove Animasiya Studiya"sının "Sehrli xalça" tammetrajlı animasiya filminin tizeri və "3Dost Production" MMC-nin qısametrajlı "Həsrət" animasiya çarxı nümayiş etdirilib.

**Sentyabrın 15-indən 22-sinədək** 4-cü Sevil Beynəlxalq Qadın Sənədli Film Festivalı keçirilib. Festivalda "Hədis" filmi (2023, rejissor Nəzrin Ağamalıyeva) nümayiş etdirildi və "Ən yaxşı yerli qısametrajlı sənədli film" mükafatı aldı.

**Sentyabrın 26-sından oktyabrın 1-inədək** 7-ci "DokuBaku" Beynəlxalq Sənədli Filmlər Festivalı keçirilib. Festivalda "Hədis" filmi (2023, rejissor Nəzrin Ağamalıyeva) nümayiş etdirildi və "Ən yaxşı qısametrajlı Azərbaycan filmi" mükafatı aldı.

**Oktyabrın 8-indən 11-inədək** 3-cü "Korkut Ata" Türk Dünyası Film Festivalı keçirilib. Festialda "Baharın oğurlanması" (2023, rejissor Aleksandra Şirinova) filmi müsabiqədənkənar proqramda nümayiş etdirilib.

**Oktyabrın 19-undan 21-inədək** "YARAT" Müasir incəsənət mərkəzinin təşkilaçılığı ilə "YARAT Shorts" qısametrajlı filmlər festivalı keçirilib. Festivalda "Kuklalar" (2022, rejissor: Sevinc

Quliyeva), “Boş yerlər” (2023, rejissor Ayan Novruzlu) filmləri nümayiş etdirilib və “Qeyri-adi qorxu” (rejissor Nəzrin Ağamalıyeva), “Sonuncu lələk” (rejissor Firəngiz Bağırova) layihələri təqdim olunub.

**Noyabrın 10-nundan 15-inədək** 14-cü Bakı Beynəlxalq Qısa Filmlər Festivalı keçirilib. Festivalda yerli animasiya müsabiqə proqramı yox idi. Festivalın “Beynəlxalq müsabiqəsində” “Hədis” filmi (2023, rejissor Nəzrin Ağamalıyeva) nümayiş etdirildi və “Münsiflər heyətinin xüsusi qeydi” diplomu aldı. “Panorama” proqramı daxilində “Kuklalar” (2022, rejissor: Sevinc Quliyeva) və “Timid və ağacdələn” (2023, rejissor Toğrul Məstəlizadə) nümayiş etdirildi. Festivalın “Retrospektiv” proqramında “Münəccimin şagirdi” (1983, rejissor Arif Məhərrəmov) nümayiş etdirildi.

## Azərbaycan Respublikası Kino Agentliyi (ARKA)

**İyulun 18-ində** Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) film layihələri müsabiqəsi elan edib. **23-24 noyabr** tarixində Azərbaycan Dövlət Film Fondunda təşkil olunan pitçinqdə 3 animasiya layihəsi iştirak etmişdir: “44 gün” (“3Dost Production” MMC), “Narqız” (“PERİ FİLM” MMC) və “Kapitan və Xəzər dənizi” (“Rental Azərbaycan” MMC) (qeyd edək ki, “Kapitan və Xəzər dənizi” hibrid sənədli filmində animasiyadan və arxiv materiallarından istifadə olunacaq). **Noyabrın 11-ində** müsabiqənin nəticələri elan olunub. “Kapitan və Xəzər dənizi” qısametrajlı sənədli animasiya, “Narqız” (“PERİ FİLM” MMC) qısametrajlı animasiya film layihələri müsabiqədə qalib oldu və istehsalına dəstək göstərilməsi təsdiq edildi. Müsabiqəyə təqdim olunmuş və seçilməmiş istənilən layihə bağlı Mədəniyyət Nazirliyi tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edilə bilər.

## Azərbaycan Respublikası Audiovizual Şurası

**Dekabrın 2-sindən 9-unadək** audiovizual şuranın dəstəyi və Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Qazaxıstan Respublikasının "Balapan" televiziya kanalının animasiya üzrə mütəxəssislərinin ümumölkə və peyk televiziya kanallarının animasiya üzrə əməkdaşları üçün 2 onlayn təlim keçirilmişdir.

**Dekabrın 12-sində** audiovizual şura 2023-cü ilin noyabr ayı ərzində ümumrespublika yerüstü televiziya yayımçılarının efirində yayımlanmış proqramların məzmununa görə bölgü açıqlayıb. Proqram bölgüsü səhər 07:00-dan gecə 01:00 aralığında yayımlanan verilişləri əhatə edib. Məzmun bölgüsündə ən az paya malik olan proqramlar “uşaq proqramları (0,4 faiz) və cizgi filmləri (0,6 faiz) olub.

## Animasiya kinosuna aid təhsil proqramları

**Fevralın 7-sində** Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) Kino Məktəbinin təntənəli buraxılış gecəsi keçirildi. Animasiya üzrə üç tələbə məzun oldu – Kübra Binnətova, Gülnar Əliyeva və Banu Adaşova. Animasiya kursunun rəhbəri Əməkdar incəsənət xadimi Firəngiz Qurbanova olub.

**Mayın 12-sində** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 2023/2024-cü tədris ilində “Animasiya və kompüter qrafikası” ixtisası üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün qəbul elan edib.

**Sentyabrın 29-unda** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə Mədəni və yaradıcı sənayelər üzrə tədris və inkubasiya mərkəzində Animatorların İnkişaf Proqramı (Animator’s Accelerator) üçün müraciətlərin qəbuluna start verildi. Bu – 8 həftəlik təlim proqramı, yerli animatorların peşəkarlığının artırılması və beynəlxalq standartlara uyğun peşə bacarıqlarının mənimsənilməsi məqsədilə həyata keçirilir. Təlimi nəzərə alaraq ən uğurlu iştirakçıların işlə təmin edilməsi və beynəlxalq layihələrə cəlb edilməsi nəzərdə tutulur. Bu təlim “Lakeside” animasiya studiyasının kreativ direktoru Matthew Lyon-un rəhbərliyi altında keçiriləcək.

**Sentyabrın 6-sından 10-unadək** Nizami Kino Mərkəzində keçirilən 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalında “Animasiya filmləri vasitəsilə qadın haqları” vörkşopu və maliyyə proqramı layihəsi uğurla həyata keçirildi. Festival çərçivəsində, həmçinin, “Oscar” mükafatlı rejissor Michaël Dudok de Wit-in və “Netflix” və “Apple TV” kimi şirkətlərlə çalışan kanadalı animator Matthew Lyon-un, “Hədis” filminin rejissoru Nəzrin Ağamalıyevanın master-klaslar və uşaqlar üçün gürcüstanlı rejissor Ana Chubinidze və hindistanlı mentor Tehzeeb Khurana-nın vörkşopları baş tutdu.

**Oktyabrın 9-unda** Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Prodüserlər Gildiyasının təşkilatçılığı ilə “Prodüserlərin yüksəlişi” adlı təlim proqramına start verilib. Proqramda iki animasiya layihəsi iştirak etmişdir – “Qeyri-adi qorxu” layihəsi (“PERİ FİLM” MMC) və “Dar vaxtında” (“Dynamic Box” MMC) layihəsi.

**Oktyabrın 28-ində** Beynəlxalq Animasiya Günündə “Nine Senses” yaradıcılıq və özünüinkişaf mərkəzi rejissor Emin Mirabdullayevin rəhbərliyi ilə Bakıda “Anima” animasiya studiyasının açılışı olub. Studiyada stop motion üzrə animasiya dərsləri keçirilir.

**Noyabr-dekabr** aylarında Mədəniyyət Nazirliyinin dəstəyilə keçirilən “Yaradıcı müzakirələr” layihəsi çərçivəsində Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev 9 şəhər və rayonda (Bakı, Sumqayıt, Şamaxı, Şəki, Mingəçevir, Gəncə, Quba, Lənkəran, Naxçıvan) “Mənfəət üçün canlandırma. Animasiya sənəti və ticarəti” mövzusunda mühazirə oxuyub.

## ÜÇÜNCÜ HİSSƏ. XÜLASƏ

Yuxarıda qeyd olunanları nəzərə alaraq, əminliklə deyə bilərik ki, animasiya kinosu Azərbaycanda inkişaf edir. Artıq ikinci dəfədir ki, Azərbaycan animasiya filmi dünyanın böyük və ən qədim animasiya festivalı olan Fransanın Annecy Beynəlxalq Animasiya Film Festivalında iştirak edib (“Hədis” animasiya filmi). Assosiasiya tərəfindən 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı daha da böyüdü – festivalda 3000-dən çox tamaşaçı iştirak etdi və cəmi 18 yerli film müsabiqədə yarışdı. Yuxarıda qeyd etdiyimiz kimi, Mədəniyyət Nazirliyi və digər dövlət qurumları da animasiyanı dəstəkləyirlər – məsələn, “Animatorların İnkişaf Proqramı”. YouTube üzərində bəzi yerli animasiya kanalları yaxşı nəticələr əldə ediblər (məsələn, “KooklaTV” kanalın 51,236,107 baxış sayı var). İlin sonunda isə “Türk Animasiya Şəbəkəsi”nin yaradılması müzakirə olunub. Bütün bunlar çox sevindiricidir.

Lakin, animasiya kinosu sahəsi üzrə bir neçə problem gündəmdə qalır və onların həlli üçün ciddi addımlar atmaq gərəkdir:

1) **Peşəkar animasiya filmlərinin sayı azdır.** Yuxarıdaki statistika onu göstərir ki, 2023-cü il cəmi 2 peşəkar qısametrajlı animasiya filmi istehsal olunub və 2023-cü ildə istehsal olunan cəmi 1 peşəkar film beynəlxalq festivallarda iştirak edib. Bu qənaətbəxş nəticə deyil.
2) **Uşaqlar üçün animasiya serialları yoxdur.** Monetizasiya olunmaq yüksək şansı olan bu məhsullar bizdə hələ ki reallaşmır.
3) **İndiyə kimi tammetrajlı animasiya filmi çəkilməyib.** Məhz bu məhsul (seriallarla birlikdə) bizə beynəlxalq bazara çıxmağa zəmin yarada bilər.
4) **Animasiya kinosu üzrə hər hansı bir qanun yoxdur.** Məsələn, televiziya kanalları kifayət qədər animasiya filmləri göstərmirlər (audiovizual şuranın məlumatına əsasən) və TV-lərin animasiya istehsalı üzrə hər hansı bir rəsmi kvotası mövcud deyil. Animasiya studiyalarına heç bir vergi güzəştləri tətbiq olunmur.
5) **ARKA animasiya kinosuna kifayət qədər dəstək vermir.** 2023-cü ildə ARKA-nın dəstəyi ilə heç bir animasiya filmi istehsal olunmayıb. 2023-cü ildə keçirilən müsabiqədə isə cəmi iki qısametrajlı animasiya filmi qalib gəlmişdir, amma indiyə qədər maliyyə vəsaiti almayıb.

Növbəti illərdə Azərbaycan Animasiya Assosiasiyası məhz bu vacib problemlərin həll olunması üçün çalışacaq.

**Azərbaycan Animasiya Assosiasiyası**

**Bakı, 11.02.2024**

## Mənbələr


https://prezident.az/

https://anima.az/

https://animafilm.az/

https://www.facebook.com/Azerbaycan.animasiyasi

https://www.instagram.com/azerbaycan.animasiyasi/

https://www.instagram.com/animafilm.festival/

https://www.facebook.com/groups/anima.az/

https://culture.gov.az/az

https://arka.culture.az/

https://yaradici.az/

https://creative.az/

https://week.creative.az/

https://aki.az/

https://acif.az/

https://talks.creative.az/

https://filmfestival.az/

https://dokubaku.az/

http://www.sevilfest.org/

https://az.m.wikipedia.org/wiki/H%C9%99dis_(film)

https://www.animafilm.studio/

https://medeniyyet.az/page/news/68429/.html

https://festival.ilcinemaritrovato.it/en/evento/cr-kids-fiabe-dal-mondo/

https://www.admiu.edu.az/az.php?go=tekrartehsil

https://1news.az/news/20231129082927799-Azerbaidzhanskii-animatsionnyi-film-stal-luchshim-v-Germanii-FOTO

https://1news.az/news/20231122100438564-V-Baku-otmetyat-100-letie-studii-Disney

https://1news.az/news/20230904034715179-Podrobnaya-programma-mezhdunarodnogo-festivalya-ANIMAFILM-FOTO

https://1news.az/news/20230328114944157-Dzhyrtdan-i-ne-tolko-Sovremennaya-azerbaidzhanskaya-animatsiya-vpervye-na-bolshom-ekrane-VIDEO

https://kulis.az/xeber/media/orxan-adigozelovun-filmi-numayis-olunacaq-51379

https://kulis.az/xeber/media/tiq-tiq-xanimin-rejissoru-azerbaycanda-kino-sistemi-dagilib-musahibe-49841

https://aki.az/rejissor-m%C9%99sud-p%C9%99nahi-tamasacilara-muraci%C9%99t-edib/

https://news.day.az/culture/1632954.html

https://news.day.az/culture/1614962.html

https://news.day.az/culture/1617795.html

https://news.day.az/culture/1528234.html

https://news.day.az/culture/1527393.html

https://media.az/politics/1067930980/oskaronosnyy-rezhisser-problema-finansirovaniya-animacii-suschestvuet-ne-tolko-v-azerbaydzhane-intervyu-foto/

https://media.az/society/1067890989/rezhisser-animacii-firangiz-bagirova-ya-slushala-inostrannyh-kolleg-i-mne-bylo-obidno-intervyu-foto/

https://oxu.az/politics/794795

https://oxu.az/culture/806052

https://oxu.az/culture/784707

https://oxu.az/society/773993
https://oxu.az/politics/774008

https://oxu.az/culture/771979

https://xalqqazeti.az/az/medeniyyet/153834-usaqlar-milli-qehreman-soraginda

https://youtu.be/uybT89vClCA?si=s6XtXdn6NlMzf09E

https://toxum.org/az/projects/nergiz-animasiya-filmi-176

https://azertag.az/xeber/hedis_animasiya_filmi_beynelxalq_festivalin_qalibi_olub-2863846

https://azertag.az/xeber/almaniyada_taninmis_animasiya_filmleri_rejissoru_mesud_penahi_mukafatlandirilib-2861299

https://azertag.az/xeber/pitch_a_tv_show_telim_ve_pitchinq_musabiqesinin_qalibleri_mukafatlandirilib-2848645

https://azertag.az/xeber/yes_mukafatina_muracietlerin_qebuluna_baslanilib-2846943

https://azertag.az/xeber/6_ci_animafilm_naxchivanda-2846463

https://azertag.az/xeber/gel_yarat_yaradiciliq_uzre_marafonun_qalibleri_mueyyenlesib-2840499

https://azertag.az/xeber/bakida_disney_studiyasinin_100_illiyi_qeyd_olunub-2839669

https://azertag.az/xeber/film_layiheleri_musabiqesinin_yekunlarina_hesr_edilmis_brifinq_kechirilib-2839231

https://azertag.az/xeber/bakida_turk_animasiya_sebekesinin_yaradilmasi_muzakire_olunub-2836981

https://azertag.az/xeber/kino_agentliyinin_elan_etdiyi_film_layiheleri_musabiqesine_yekun_vurulub-2836333

https://azertag.az/xeber/panel_sessiya_reqemsal_dovrde_reqabetqabiliyyetli_audiovizual_sahenin_formalasdirilmasi-2836303

https://azertag.az/xeber/film_layiheleri_musabiqesi_ile_bagli_sechim_komissiyasi_ve_ekspert_surasinin_yekun_iclasi_kechirilib-2836135

https://azertag.az/xeber/azerbaycanli_rejissorun_hedis_animasiya_filmi_almaniyanin_nufuzlu_festivalinin_qalibi_olub-2836023

https://azertag.az/xeber/film_layiheleri_musabiqesinin_pitchinq_merhelesi_kechirilib-2834009

https://azertag.az/xeber/yaradici_heftenin_genis_proqrami_achiqlanib_yenilenib-2832799

https://azertag.az/xeber/bakida__quotdisney_quot_studiyasinin_100_illiyi_qeyd_olunacaq-2830811

https://azertag.az/xeber/animation_in_azerbaijan_2023_adli_kataloq_hazirlanir-2824571

https://azertag.az/xeber/aztv_gelen_ilden_milli_animasiya_filmlerinin_istehsalina_baslayacaq-2822686

https://azertag.az/xeber/hedis_animasiya_filmi_izmirde_kechirilen_beynelxalq_festivalda_numayis_etdirilecek-2821012

https://azertag.az/xeber/tarix_animasiya_filmi_portuqaliyada_beynelxalq_festivalda_olkemizi_temsil_edecek-2800522

https://azertag.az/xeber/bakida_yeni_yarat_shorts_layihesine_start_verilecek-2792986

https://azertag.az/xeber/yaradici_senayeler_qovsagi_tedris_ve_inkubasiya_merkezi_bdu_da_infosessiya_teskil_edib-2786362

https://azertag.az/xeber/vi_animafilm_beynelxalq_animasiya_festivali_basa_chatib-2748056

https://azertag.az/xeber/azerbaycan_milli_animasiya_senayesi_uchun_kommersiyalasdirilma_ve_ixrac_imkanlari_perspektivleri_muzakire_olunub-2746777

https://azertag.az/xeber/bakida_vi_animafilm_beynelxalq_animasiya_festivalinin_achilisi_olub-2746311

https://azertag.az/xeber/azerbaycan_yazichilar_birliyinde_edebiyyatin_kinoya_transferi_movzusunda_dinleme_kechirilib-2743229

https://azertag.az/xeber/6_ci_animafilm_beynelxalq_animasiya_festivalinin_proqrami_uch_hisseden_ibaret_olacaq-2731204

https://azertag.az/xeber/6_ci_animafilm_festivali_uchun_bilet_satislarina_baslanilib-2729878

https://azertag.az/xeber/6_ci_animafilm_festivalinin_musabiqe_istirakchilari_belli_olub-2724622

https://azertag.az/xeber/animasiya_pesekarlari_ve_heveskarlari_ile_gorus_kechirilecek-2718694

https://azertag.az/xeber/hedis_filmi_asiyanin_nufuzlu_festival_musabiqesinde-2714983

https://azertag.az/xeber/altinci_animafilm_festivalinin_musabiqe_istirakchilari_belli_olub-2702428

https://azertag.az/xeber/azerbaycan_respublikasinin_kino_agentliyi_film_layiheleri_musabiqesi_elan_edib-2698849

https://azertag.az/xeber/novbeti_baki_beynelxalq_qisa_filmler_festivalina_film_qebulu_baslayib-2696794

https://azertag.az/xeber/heyder_eliyev_irsi_festivali_taninmis_ressam_rejissor_nazim_memmedovun_xatire_sergisi_achilib-2692993

https://azertag.az/xeber/kapitan_ve_xezer_denizi_film_layihesine_maliyye_desteyi_ayrilib-2669582

https://azertag.az/xeber/azerbaycan_filmi_beynelxalq_musabiqede_qalib_olub-2668442

https://azertag.az/xeber/azerbaycan_annecy_beynelxalq_animasiya_film_festivalinda_temsil_olunur-2656583

https://azertag.az/xeber/yarat_da_hedis_animasiya_filminin_premyerasi_olub-2646515

https://azertag.az/xeber/butun_dovlet_kinostudiyalarinda_istehsalat_prosesi_dayandirilib___medeniyyet_nazirliyi-2633099

https://azertag.az/xeber/tarix_animasiya_filmi_olkemizi_beynelxalq_festivalda_temsil_edecek-2632232

https://azertag.az/xeber/genc_azerbaycanli_kinorejissor_beynelxalq_film_festivalinda_istirak_edecek-2616917

https://azertag.az/xeber/animafilm_school_kinematoqrafchilar_uchun_mentorluq_ve_maliyyelesdirme_imkani_teklif_edir-2602676

https://azertag.az/xeber/admiu_da_odenisli_esaslarla_tekrar_ali_tehsil_almaq_imkani-2613083

https://azertag.az/xeber/tiq_tiq_xanimin_rejissoru_tamasachilara_muraciet_edib-2599535

https://azertag.az/xeber/start_2023_film_layihesi_musabiqesinin_neticeleri_elan_olunub-2578223

https://azertag.az/xeber/azerbaycan_ve_qazaxistan_prezidentleri_metbuata_beyanatlarla_chixis_edibler_yenilenib_video-2565839

https://azertag.az/xeber/bizimkiler_animasiya_toplusu_kinoteatrlarda-2546075

https://azertag.az/xeber/azerbaycan_animasiya_filmi_annecy_festivali_musabiqesinde-2534345

https://azertag.az/xeber/film_istehsalchilari_ve_kinoteatr_sebekeleri_temsilchileri_ile_gorus_olub-2500985

https://azertag.az/xeber/vi_animafilm_beynelxalq_animasiya_festivalina_filmlerin_qebuluna_baslanilib-2491688

https://azertag.az/xeber/kino_mektebinin_telebelerine_diplomlar_teqdim_olunub-2478203

https://azertag.az/xeber/baslangic_filmi_almaniyada_kinofestivalda_numayis_olunacaq-2460935

https://azertag.az/xeber/taninmis_animasiya_filmleri_rejissoru_mesud_penahinin_80_illik_yubileyi_qeyd_olunub-2442020

https://azertag.az/xeber/animasiya_filmleri_maraq_diqqet_qaygi_ve_chetinlikler-2440727

https://azertag.az/xeber/vi_animafilm_beynelxalq_animasiya_festivali_bu_ilin_sentyabrinda_kechirilecek-2439446

https://azertag.az/xeber/taninmis_animasiya_filmleri_rejissoru_mesud_penahinin_80_illik_yubileyi_qeyd_edilecek-2437193

https://azertag.az/xeber/azerbaycanin_ilk_berpa_edilmis_animasiya_filmi_beynelxalq_festivallarin_diqqet_merkezinde-2435033

https://azertag.az/xeber/azerbaycan_animasiya_assosiasiyasinin_sayti_fealiyyete_baslayib-2432753